# Məktəbəhazırlıq qrupları üçün tədris vəsaitləri hazırdır

**Laləzar CƏFƏROVA,**
*ARTPİ-nin Məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Respublikamızda məktəbəhazırlığın təşkili ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş vəsaitlər "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı" və "Məktəbəqədər təhsilin proqramı (kurikulumu)" əsasında həm Azərbaycan, həm də rus dillərində hazırlanmışdır. Vəsaitlər toplusuna "Savad təliminə hazırlıq və nitq inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Ətraf aləmlə tanışlıq" üzrə uşaqlar üçün vəsaitlər, həmçinin müəllimlər üçün "Məktəbəhazırlıq üzrə təlimin təşkili metodikası" adlı metodik vəsait və videoməşğələlər daxildir. Vəsaitlərin hazırlanmasında respublikanın təcrübəli, səriştəli mütəxəssisləri iştirak etmişlər.

Dünya təhsil sisteminə inteqrasiyaya doğru irəlilədiyimiz müasir dövrdə təhsil sistemində çox mühüm layihələr həyata keçirilir. Bu layihələr müstəqillik yolunda inamla irəliləyən ölkəmizin siyasi, sosial həyatında baş verən yeniliklərdən xəbər verir. Bu gün dünyada baş verən sürətli texnoloji inkişaf gələcək üçün savadlı, yaradıcı və yüksək intellektə malik gənclər hazırlamaq zərurətini yaradır. İndi cəmiyyətimizi idarə etmək üçün daha hazırlıqlı, müstəqil düşünmək və fəaliyyət göstərmək qabiliyyətlərinə malik, müstəqil həyata hazır şəxsiyyətin tərbiyə olunması problemi meydana çıxır. Dövlətin idarə olunması, millətin inkişafı yaxın gələcəkdə müasir gəncliyin öhdəsinə düşəcəkdir.

Şəxsiyyətin formalaşmasının təməli, məlum olduğu kimi, məktəbəqədər yaş dövründə qoyulur. Buna görə də məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlimin düşünülmüş sistemi yaradılmalıdır. Təsadüfi deyildir ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda məktəbəqədər təhsilin qarşısında ciddi vəzifələr qoyulmuşdur. Bu qanunda deyilir: "Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnmələrini, istedad və qabiliyyətlərinin üzə çıxarılmasını, sağlamlıqlarının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir".

Ölkəmizin ictimai həyatında baş verən sosial-iqtisadi dəyişikliklər Azərbaycanın məktəbəqədər təhsil sisteminə də öz təsirini göstərdi. Müasir təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdən biri məktəbəqədər təhsilin müasir tələblərə cavab verən bir səviyyəyə çatdırılmasıdır. Bu məqsədlə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, 16 iyul tarixli, 137 nömrəli qərarı ilə "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı" təsdiq edilmişdir. Bu sənəd məktəbəqədər təhsilin məzmunu, idarəolunması, maddi-texniki və tədris bazası, infrastrukturu, təhsilverənlərin keyfiyyət göstəriciləri, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyən etmək məsələlərini əhatə edir. Həmçinin dünya təcrübəsinə uyğun olaraq beşyaşlıların məktəb təliminə hazırlığının zəruriliyi, bunun "Məktəbəqədər təhsilin dövlət proqramı (kurikulumu)" əsasında həyata keçirilməsi qeyd olunur.

Uşağın məktəbə hazırlanması uzunsürən bir prosesdir. Məktəbəqədər müəssisədə, kiçik qrupdan başlayaraq, düşünülmüş şəkildə inkişaf sahələri üzrə müəyyən iş aparılır, artıq məktəbəhazırlıq qruplarında bu proses daha da intensivləşdirilir. Bu yaşda uşaqların məktəbə hazırlığı onların məktəbdə asanlıqla təhsil ala bilmələri üçün təkan rolunu oynayır. Adətən, məktəbəqədər təhsil dedikdə, bilik və bacarıqların verilməsi, uşaqların intellektual inkişafı, biliklərin mənimsənilməsi üçün zəruri olan psixi proseslərin inkişafı nəzərdə tutulur. Bilik və bacarıqların mənimsənilməsi son məqsəd deyil, şəxsiyyətin inkişafında bir vasitədir.

Məktəbəqədər yaş dövründə məktəb modelinin tətbiqi məqsədəuyğun deyil. Burada uşaqlara hazır biliklər vermək əvəzinə, onlara öyrənmək və bilikləri həyatda tətbiq etmək yollarını öyrətmək lazımdır.

Uşaq məktəbəhazırlıq dövründə, biliklərə yiyələnmə prosesində təlimlə bağlı çətinliklərlə qarşılaşır. Bu illər ərzində uşaq gəzməyi, danışmağı, başqaları ilə ünsiyyətə girməyi, fikirləşməyi və fikirlərini əsaslandırmağı, gücünə müvafiq problemləri həll etməyi öyrənir. Əgər bu idrak prosesləri pedaqoji və metodiki cəhətdən düzgün təşkil olunmazsa, məktəb təlimi dövründə daha ciddi çətinliklər qarşıya çıxa bilər. Buna görə də nəzərə almaq lazımdır ki, gələcək məktəblinin uğuru onun məktəbəqədər dövrdəki müvəffəqiyyətlərindən asılıdır. Əgər uşaqla onun həyatının ilk illərindən metodiki cəhətdən düzgün hazırlıq aparılarsa, təlimdə baş verəcək çətinlikləri yüngülləşdirmək və geriləmə hallarının qarşısını almaq mümkündür.




Məktəbəqədər yaşlı uşaq məktəbə qəbul olunarkən təlim üçün zəruri sayılan müəyyən inkişaf səviyyəsinə malik olmalıdır. Bu zaman uşaq yalnız oxumaq, yazmaq və saymaq bacarıqlarına deyil, digər intellektual bacarıqlara da malik olmalıdır.

Uşağın intellektual hazırlığı dedikdə, həm də onun müəyyən bacarıqlarının formalaşması nəzərdə tutulur, yəni uşaq böyüklər tərəfindən tapşırılmış vəzifəni dinləməyi, fərqləndirməyi və yerinə yetirməyi bacarmalıdır.

Uşağın məktəb təliminə hazırlığı problemləri içərisində ilkin yerlərdən birini onun fiziki inkişafı, orqanizmin sistematik təlimə funksional hazırlığı problemi tutur. Əgər uşaq fiziki cəhətdən möhkəm, sağlam olsa, müvəffəqiyyətlə oxuyacaq, proqram materiallarını mənimsəyəcək, zehni yük onun əsəblərinə və fiziki yorğunluğuna səbəb olmayacaqdır.

Məktəbəqədər yaşlı uşaqların əl əzələlərinin kiçik motorikasının inkişafına da xüsusi diqqət yetirmək lazımdır. Bura əldə qələm tutmaq, əşyalarla kiçik manipulyasiyalar etmək (plastilindən yapma, qayçıdan istifadə, rəngli karandaşlardan istifadə, pərgarla dairə, yaxud xətkeşlə düz xətlər çəkmək və s.) bacarıqları daxildir.

Məktəbəqədər yaşlı uşaqların məktəbə psixoloji cəhətdən hazırlığı dedikdə isə onlarda valideynlər, yaxud da müəllim-tərbiyəçilər tərəfindən məktəbə getmək istəyinin formalaşdırılması başa düşülür. Bu problemə məktəbəhazırlıq qruplarında çalışan müəllimlər xüsusi diqqət yetirməlidirlər, çünki məktəbəqədər müəssisələrə getməyən bir çox uşaqlar ailədən birbaşa məktəbəhazırlıq qruplarına gəlirlər, onların məktəb, ümumiyyətlə kollektiv haqqında təsəvvürləri zəif olur. Belə qruplarda müəllimlər uşaqlara məktəbə getməyin lazımlı olduğunu, orada bir çox biliklərə yiyələnəcəklərini, özlərinə yeni dostlar tapacaqlarını söyləməklə onlarda məktəbə maraq və istək yaratmağa çalışmalıdırlar.

Biz bilirik ki, ənənəvi proqramda pedaqoji prosesin müxtəlif sahələrində materialın həcminin böyüklüyü həddindən artıq yüklənməyə gətirib çıxarır ki, bu da ilk növbədə, uşağın psixofizioloji vəziyyətində əks olunur. Bu zaman uşağa daha çox bilik vermək arzusu ilə məktəbəqədər yaşlı uşağın psixofizioloji imkanları arasında ziddiyyət yaranır. Bu problemlərin həllində inteqrasiyadan istifadə zərurəti yaranır.

Beşyaşlılarla bir il ərzində aparılan iş nəticəsində uşaqlar öyrənirlər ki, bağçadan fərqli olaraq, məktəbdə yeni şəraitə düşəcək, fərqli fəaliyyət göstərəcəklər. Məktəbdə davranış mədəniyyəti, kollektivdə qarşılıqlı münasibət xüsusi diqqət tələb edir. Uşaq bağçasında böyük hesab olunan bu uşaqların məktəbdə mövqeyi dəyişir, onlar məktəb kollektivinin ən kiçik üzvlərinə çevrilirlər.

Uşaqların məktəbə hazırlanması prosesində aşağıdakılara əməl edilməsi vacibdir:

* uşaqları məcbur etməmək, verilən tapşırıqları yerinə yetirmələrində və hər hansı oyunu seçmələrində onlara müstəqillik vermək;

* uşağın bilik və bacarıqlarının səviyyəsini fəaliyyət prosesində, ona bildirmədən, uşaqda gərginlik və özünəqapanma yaratmadan yoxlamaq;

* müəyyən məqsədlə aparılan müşahidəni uşağa hiss etdirmədən, tədricən həyata keçirmək;

* fəaliyyət prosesində onun hərəkətlərini "çərçivəyə" salmamaq, hər şeyə maraq göstərib çox sual verməsinə irad tutmamaq, fəallığına çalışmaq və s.

Nəzərə almaq lazımdır ki, əgər uşaq onu əhatə edən ətraf aləmdə baş verənlərlə bağlı məntiqi suallar verirsə, deməli, sağlam düşünür, yaxud böyük və kiçik motorikanın inkişafına xidmət edən hərəkətləri yerinə yetirirsə, deməli, fiziki inkişafın formalaşması prosesi qaydasındadır, fizioloji meyarlara görə məktəbə hazırdır və təlim yükünün öhdəsindən gələ biləcək. Ona görə də uşaqların həm psixi, həm də fiziki inkişafının sürətlə getdiyi məktəbəqədər yaş dövründə hər bir valideyn və müəllim uşaqların maraq və istəklərini nəzərə almalı, onlara səbrlə yanaşmalı, bilik və bacarıqlarını, inkişaf dinamikasını nümayiş etdirən fəaliyyətlərə sədd qoymamalıdırlar. Eyni zamanda uşaqların gizli bacarıqlarının aşkara çıxarılmasına və inkişaf etdirilməsinə çalışmalıdırlar.

İlk növbədə, uşağın hərtərəfli inkişafının təmin edilməsi bir vəzifə kimi irəli sürülür.Belə fikirlər tez-tez səslənir ki, uşaq istənilən təlim prosesində inkişaf edir, lakin dəyərlərin, təhsilin məqsəd və vəzifələrinin dəyişməsi, elmi pedaqoji tədqiqatların dərinləşdirilməsi "inkişaf" anlayışının da dəyişməsinə gətirib çıxarır. Bəs "uşağın inkişafı" anlayışı bu gün nəyi ifadə edir? Müasir dövrdə inkişaf dedikdə, uşağın tam inkişafı başa düşülür ki, bu da onun bacarıq, maraq və meyillərinin ahəngdar inkişafı, fəal şəxsiyyətin formalaşması deməkdir.

Məktəbəhazırlıq mərhələsində ibtidai məktəbdə təlimə asan keçid və əhalinin bütün təbəqələrindən olan uşaqların təhsili üçün bərabər imkanların təmin edilməsi haqqında fəal müzakirələr aparılır.

Yeni məqsəd və vəzifələr təhsilə yeni məzmun, yeni təlim metodları gətirib. Tanınmış pedaqoq və psixoloqlar deyirlər ki, biliyi uşağa hazır şəkildə vermək olmaz. Bu o deməkdir ki, müəllim elə təlim situasiyaları yaratmalıdır ki, uşaqların bilikləri mənimsəmə fəaliyyətini istiqamətləndirməyi bacarsın, həmçinin uşaq biliyin əldə edilməsi, yeni biliklərin "kəşfi" prosesində özü iştirak etsin.

Bəzi müəllimlərə stereotiplərdən imtina etmək, dəyərləri dəyişdirmək və fərqli pedaqoji mövqeni qəbul etmək psixoloji cəhətdən çətin olur. Aydın olur ki, təhsilin yeni məzmunu və onun reallaşdırılması metodları inkişafetdirici texnologiyalarla, yeni məzmunla işləməyi bacaran pedaqoji işçilər tələb edir. Bu da müəllimdən yeni məzmunu və dəyərləri qəbul etməyə psixoloji hazırlıq, müasir inkişafetdirici təlim sisteminin mənimsənilməsinə tələbat, xüsusi texnoloji hazırlıq tələb edir.

Müasir müəllim hazırlığının qarşısında bu gün aşağıdakı tələblər qoyulur:

* yeni məzmunla işləmək bacarığı;

* müasir inkişafetdirici metodikaları, qabaqcıl təcrübəni bilmək.

Son illərdə məktəbəqədər təhsilin inkişafının yeni prioritetlərini müəyyən edən mühüm normativ-hüquqi sənədlər qəbul edilmişdir. Dövlət sənədlərinin tələblərinə uyğun olaraq inkişafetdirici, təlimedici-tərbiyəedici sistem uşaqların hərtərəfli inkişafına, onlarda əxlaq normalarının formalaşdırılmasına, onların yaş və fərdi imkanlarına, qabiliyyət və ehtiyaclarına uyğun olaraq sosial təcrübə əldə etmələrinə istiqamətləndirilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Nazirlər Kabineti "Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında" 2016-cı il, 11 iyul tarixli, 271 nömrəli qərar vermişdir. Qərarda qeyd edilir ki, dövlət ümumtəhsil məktəblərində dövlət büdcəsinin vəsaiti hesabına məktəbəhazırlıq qrupları açılsın. Bu qərarın icrası ilə bağlı Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov 5 avqust, 2016-cı il tarixdə 548 №-li əmri imzalamışdır. Əmrə əsasən, 2016/2017-ci tədris ilindən etibarən ümumtəhsil məktəblərində beşyaşlı uşaqların məktəbəhazırlıq təhsilinə başlanacaq. Məktəblərdə təşkil edilən hazırlıq qruplarının məşğələləri oktyabr ayının 1-də başlayıb, may ayının sonunda bitəcək. Qərara əsasən, məktəbəhazırlıq qruplarının yaradılacağı ümumtəhsil məktəblərində lazımi təlim şəraitinin təmin olunması istiqamətində tədbirlərin görülməsi, məktəbəhazırlıq təhsilini aparacaq müəllimlər üçün təsdiq olunmuş tədris planı və proqrama uyğun öyrədici materialların hazırlanması nəzərdə tutulub. Artıq bu sahədə müəyyən işlər görülmüşdür.

Müəllimlə uşağın gündəlik ünsiyyəti prosesində inkişafetdirici vəzifələrin reallaşdırılması xüsusi məşğələlərlə uyğunlaşdırılmalıdır. Məşğələlərin məzmunu və təşkili formaları da müxtəlif, rəngarəng olmalıdır. Məşğələlərin fəal təlim əsasında keçirilməsi hər bir uşağın idrak fəallığını təmin edir, əks-əlaqə qurmağa və uşaqların irəliləyişlərini aşkarlamağa kömək edir. Bütün bu deyilənlər məktəbəhazırlığın təşkili üçün vəsaitlər hazırlanarkən nəzərə alınmışdır.

Vəsaitlər toplusu Azərbaycan Respublikasında fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində və məktəblərdə təşkil edilmiş məktəbəhazırlıq qrupları, həmçinin valideynlər üçün nəzərdə tutulmuşdur.




**"Savad təliminə hazırlıq və nitq inkişafı"** adlı vəsait uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdə hər mövzuya uyğun motivasiya, maraqlı və orijinal şəkillər, məşğələ prosesində uşaqların işləmələri üçün tapşırıqlar verilmişdir. Vəsaitə uşaqların nitq inkişafı, səs və böyük hərflərin çap forması ilə tanışlığı üzrə tapşırıqlar da daxil edilmişdir.

"Savad təliminə hazırlıq və nitq inkişafı" kitabının üz qabığının arxa səhifəsində məktəbəhazırlıq mərhələsini başa vuran uşaqlara bilik və bacarıqlarını inkişaf etdirmək məqsədi ilə *oxuyuruq.biz* təhsil portalında yerləşdirilmiş 1-ci siniflər üçün Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qrif verilmiş Azərbaycan dili, Riyaziyyat, İnformatika, Həyat bilgisi və İngilis dili (Azərbaycan və rus dillərində) fənlərinə aid multimedia resurslarını əldə etmək üçün şifrə verilmişdir. Şifrə bu fənlərdən yalnız birini seçməklə bir il ərzində pulsuz istifadə etmək hüququnu verir.




**"Məntiqi və riyazi təfəkkürün inkişafı"** adlı vəsait də uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdə məktəbəqədər təhsilin yeni məzmununa əsasən məktəbəhazırlıq qruplarında inkişaf sahələrinə uyğun standartlar əsasında tapşırıqlar verilmişdir.Təlim prosesi uşaqların say, ölçü, həcm haqqında biliklərinin, ilkin hesablama vərdişlərinin formalaşmasına istiqamətlənib.




**"Təsviri fəaliyyət"** adlı vəsait uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdə uşaqların rəsmetmə, yapma, kəsib-yapışdırma və quraşdırma üzrə ilkin bacarıqlarının formalaşdırılması məqsədləri qarşıya qoyulmuşdur. Vəsait öz orijinallığı və rəngarəngliyi ilə seçilir.




**"Ətraf aləmlə tanışlıq"** adlı vəsait də məktəbəhazırlıq qruplarında inkişaf sahələrinə uyğun verilmiş standartlar əsasında hazırlanmış və uşaqlar üçün nəzərdə tutulmuşdur. Vəsaitə daxil edilən tapşırıqlar uşaqların həyati bacarıqlarına əsaslanır. Vəsaitlər inteqrativ məzmunludur və müasir tələblər nəzərə alınaraq hazırlanmışdır.




**"Məktəbəhazırlıq üzrə təlimin təşkili metodikası"** vəsaiti müəllim üçün nəzərdə tutulmuşdur. Bu metodik vəsaitdə müəllimin təlim prosesində öz işini qurmasına istiqamət verən məşğələ planları, motivasiyaların qurulması, məşğələdə istifadə olunan metod və priyomlar, resurslar təqdim olunur.

Təsviri fəaliyyət təlim vəsaitinə aid videoməşğələlər hazırlanaraq metodikaya əlavə olunmuşdur. Təqdim olunan videoməşğələlər müəllimlərin təlim bacarıqlarının daha da inkişaf etməsinə yardımçı olacaqdır.